ӘЛИ ВӘЛИЈЕВ

# Мадарын дастаны



# ƏLİ VƏLİYEV
# MADARIN DASTANI



**BAKI 1988**

**Redaktoru Elmira Fərruxzadə**

**Vəliyev Ə.**
**Madarın dastanı. B.: Gənclik. 1988. 40 səh.**

**Folklor motivləri əsasında uşaqlar üçün yazılmış sehrli dastan. Madar hər cür çətinliklərə qəhrəmanlıqla sinə gərib məqsədinə nail olur.**

**4 803060201**
**V 18— 88**
**M (653) — 12—88**

**ISBN 5—8020—0018—x**

**©Gənclik — 1975**
**© Gənclik —1988**

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elektron Kitabları

Qızılquşlar» oymağında naxırçı Közərmiş kişinin gözünün ağı-qarası Madar adlı bir oğlu var idi. İstər Közərmiş, istərsə arvadı Xeyri Madarın xətrini cox istəyirdilər. Ata-ana bacarsaydı küləklərin qabağını kəsər, qoymazdılar oğullarının üstündən əssin. Onlardan olsaydı bütün günü Madarı ortaya qoyub onun başına dolanardılar. Ata-ananın ixtiyarı keçsəydi Madara gələn dərdi-bəlanı-azarı satın alar, özləri hər cür əziyyətə düşməyə dözər, onun kirpiyinin aşağı düşməsinə razı olmazdılar.
Közərmişlə Xeyri on səkkiz il Madarın boy- buxununa baxdılar. Hərəkətlərində ağır, danışıqlarında ağıllı, közəllikdə tayı-bərabəri olmayan Madar, ata-anasının ömrü üzərinə illər artırdığı kimi, onları hər gün cavanlaşdırırdı. Közərmiş ayağını astanadan icəri qoyan kimi Xeyri ilə Madarı görəndə elə bil bütün dünyanı ona bağışlayırdılar. Közərmişin əlli yaşı tamam olmasına baxmayaraq, hələ də ayağı təzə çarıq, əyni təzə köynək görməmişdi. Ancaq o öz həyatından narazı deyildi. O, Xeyriyə dəfələrlə demişdi: «İnsanı cavanlaşdıran da, qocaldan da ürəkdir. Ürək salamatdırsa, ona xal düşməyibsə, ona tənəli söz deyilməyibsə, hər bir şəxs çox yaşar, uzun omür sürər. Mən taleyimdən razıyam. Ürəyim sağlam, arvadım söz anlayıb dərd bilən, oğlumu da ki, kənddə barmaqla göstərirlər».
Ancaq Madarın iyirmi iki yaşı tamam olan ili Közərmişin ürəyinə xal düşdü. Xeyrinin qırmızı yanağı saraldı. Madar padşahın qızına vurulmuşdu. Ata-anasına deyirdi ki, elçi göndərin.
Közərmişlə Xeyri Madarı yanlarına çağırıb, göz yaşı axıtdılar. Əllərini qoyunlarına qoyub ona yalvardılar. Heç bir nəticə vermədi. Bir gün, beş gün, bir həftə, on gün keçdi. Madar şam kimi əriməyə, sap kimi incəlməyə başladı. O:

«Bir daha mənim üzümü görməyəcəksiniz. Baş götürüb, gözüm baxdıqca, ayağım yeridikcə gedəcəyəm» deyirdi. Közərmiş oğlunu bu halda görüb, onun dərdinə davam gətirə bilmədi, «yoxsulluğun üzü qara olsun, dedi, — padşah yanında kasıbın əli də qısadır, dili də». Axırı əlacsız qalıb padşahın qapısına elçi göndərməyi qərara aldı. Oymağın ağsaqqallarına yalvarıb-yaxardı. Əvvəlcə rədd etdilər, sonra «elçiyə zaval yoxdur» deyib, razılıq verdilər. «Qızılquş»ların dil biləni, baş tərpədəni yığışıb padşah sarayının ətrafına getdi, adətə görə «elçi daşının» üstündə oturdu. Padşaha xəbər verdilər ki, «Qızılquşlar» oymağının naxırçısı Közərmiş kişinin Madar adlı oğlu sizin qızınız Laləyə elçi göndərmişdir. Padşah qəzəbindən bığlarını çeynədi. Nə cavab verəcəyini bilməyib hökm etdi:

— Közərmişi də, Madarı da dara çəkdirin.

Vəzir padşahın yanına gəlib, məsələni ona anlatdı:

— Qibleyi-aləm, sizin qızınız Lalə xanım buyurmuşdur ki, atam məni Madara verməsə özümü sağ qoymayacağam.

Padşahın sifəti ağappaq oldu. Yaşı altmışdan keçməsinə baxmayaraq, axırıncı arvaddan bir qızı olmuşdu. O, qızının xətrini dünyalar qədər istəyirdi. Dərhal bir az qabaq verdiyi hökmü dəyişdirdi. Ancaq qızının naxırçı oğluna getməsinə əsla və qətiyyən razı ola bilməzdi. Elə bil bu xəbərdən sonra bütün dünya uçub padşahın başına tökülmüşdü. O, dar düşüncələr, intəhasız fikirlər içində qərq olduğu vaxt vəzir dedi:

— Qibleyi-aləm sağ olsun, məhəbbətə güc ola bilməz. Siz insanların özünə hökm edə bilərsiniz. İstədiyiniz şəxsi istədiyiniz kimi öldürə bilərsiniz. Siz yer üzünün allahısınız. Lakin insanların ürəyinə hakim ola bilməzsiniz. Ələlxüsus

məhəbbət kimi müqəddəs bir hissə. Qibleyi-aləm! Könül sevən göyçək olar. Məhəbbət üçün böyük-kiçik var-dövlət sədd ola bilməz. Məhəbbətin qarşısında şah da, rəiyyət də diz çökür. Odur ki, məsləhət bilirəm elçilərə «hə» cavabı verəsiniz.
Şah qəzəbləndi:
— Vəzir, sən nə cəsarətlə başından yekə qələt eləyirsən? Sən necə cürət edib belə təklifi fikrinə gətirirsən? Sən necə rəva görürsən ki, mənim qızım, padşah qızı, bir naxırçı oğluna ərə getsin? Yox, vəzir, görünür sən mənə sədaqətlə qulluq eləmirsən.
Vəzir dərhal sözünü dəyişdirdi, süni halda gülüb dedi:
— Əlahəzrət! Sözümün dalına mültəfit olun. Siz elçilərə «hə» cavabı verib yola salın. Sonra xəbər göndərin ki, oğlan gərək elə bir çiçək tapıb gətirə ki, ilin heç bir fəslində solmaya. Beləliklə, naxırçı oğlu çiçək axtarmaq üçün bütün ömrü boyu gəzər, bu cür çiçəyi tapa bilməz. Lalə xanım bir-iki il gözlər, oğlanın gəlmədiyini görüncə ondan soyuyar. Sonra siz onu istədiyiniz şəxsə ərə verə bilərsiniz...
Padşah xeyli fikirləşəndən sonra vəzirin üstünə qışqırdı: Bir az qabaq dediklərin yadından çıxdımı? Sözlərini nə tez unutdun? Özün deyirsən ki, könül sevən göyçək olar, məhəbbət üçün sədd ola bilməz. Mən sənə sual verirəm, məhəbbətə vaxt, zaman mane ola bilərmi?
Vəzirin qorxudan boğazı qurudu. O, padşahın sualına nə cavab verəcəyini düşünür, gözünü yerə zilləyib elə bil oradan cavab axtarırdı. Haçandan-haçana dilləndi:
— Qibleyi-aləm! Cavanların məhəbbəti çox qaynar olduğu kimi çox tez də sönür. Bu cəhəti nəzərinizə yetirmək istəyirdim.
Vəzir padşahı inandırdı. Bütün tarix boyu öz vəzirlərinin

başı noxtalı heyvanı olan şahlar kimi bu padşah da vəzirin çaldığı kimi oynadı, dediyi kimi hərəkət elədi. Elçiyə «hə» cavabı verib yola saldı.
Elçilərin gətirdiyi xəbər Közərmişin kasıb komasında böyük şadlığa səbəb olmuşdu. Ata sevinir, ana oğlunun boynunu qucaqlayır, Madar isə düşünürdü.
Şad xəbərin əks-sədaları divarlardan çəkilməmiş ata sevincinin, ana gülüşünün izləri qurumamış bəd bir xəbər qapını döydü. Padşah xəbər göndərmişdi ki, oğlan gərək elə bir çiçək tapıb gətirə ki, ilin heç bir fəslində solmaya. Padşahın bu hökmü yerinə yetirilməyincə Madar Lalənin üzünü görməyəcək, əlini ona vurmayacaqdır.
Elə bil bu xəbər ildırım olub Madarı vurdu O, qapqara qaraldı. Nə edəcəyini, hara gedəcəyini bilmədi, bütün günü padşah sarayının ətrafını dolandı, Laləni görmək həsrəti ilə dördyana boylandı. Ancaq hasarlar hündür, qapılar Madarın üzünə bağlı idi.
Bu hadisə səhər tezdən baş vermişdi. Axşama kimi Közərmişlə Xeyri dizlərini qucaqlayıb məlul-məlul Madara baxırdılar. Madar isə fikirləşirdi və axşam naxır oymağa qayıdan vaxt ata-anasına dedi:
Yüz fikir bir borcu ödəməyib. Padşahın sözünü kəsmək üçün mən bütün dünyanı gəzməli olsam da, elə bir çiçək tapıb gətirməliyəm. Görək onun sonra sözü nə olacaq. — Madar anasına yavaşca dedi: — Səndən bir xahişim var. Lalə xanıma xəbər göndər ki, sözünün üstündə durub məni gözləsin.
Közərmişin evində səhərə kimi işıq sönmədi. Xeyri oğlu üçün yol tədarükü gördü. Sabah ertə, gün hələ doğmamışdı ki, Lalə xanımın xidmətçilərindən birisi Madara belə bir xəbər gətirdi: «Xanım deyir ki, atamın sözünü sındırmamaq

üçün getsin. Mən bu dünyada sağ qalsam Madarın, ölsəm qara torpağın olacağam. Madar getsin və əmin olsun ki, sözümüz bir, əhdi-peymanımız müqəddəs, eşqimiz isə əbədidir.»

Madar həyətdən çıxanda anası dalınca su atdı.

Atası əllərini göyə qaldırıb oğlunun işinin avand olması üçün dua elədi.

Madar iki addım atmamışdı ki, atası çağırıb dedi:

— Babam deyərdi ki, Ağrı dağda solmaz çiçəklər bitir. Birbaş Ağrı dağa get, bala!

Madar yola düzəldi. Kənddən çıxıb üç gün gedəndən sonra əvvəlcə quru bir səhralığa çatdı. Xeyli ayaq döydü. Torpaq sifətini bozardır, Madarın zəhləsini tökürdü. Beşinci gün uzaqda bir qaraltı köründü. Madar addımlarını yeyinlətdi. Gəlib çatanda gördü ki, bu qaratikan koludur. Madar əsas cığırı itirib kolluğa düşmüşdü. Bütün günü kolların dibini axtardı. Demək olar ki, hər dəfə baxmaq üçün gəzdiyi kolların yanında əl ağacı ilə müəyyən işarə qoyurdu. Gün günortadan əyilmişdi. Madar hələ də ağzına loğma qoymamışdı. Aclıq onun yadına da düşmürdü. Amma acından ürəyi bulanır, başı hərlənirdi. O, qaratikanlığın ortasında bir dağdağan ağacı gördü. Gəlib onun altında oturdu. Xurcunun ağzını açıb yemək çıxardanda atasının sümük saplı, ucu neştər bıçağını gördü. «Görəsən bıçağı nə üçün qoymuşlar» deyə fikirləşdi. Madar yemək yeyəndən sonra susadı. Burada suyun harada olduğunu bilmirdi. O, bir az da gəzdi. Yorulub əldən düşmüşdü. Susuzluq ona elə əsər etmişdi ki, daha addım atmağa belə taqəti qalmamışdı. O, bir kolun dibində uzanmaq istəyirdi ki, boz rəngli, belində iri xalları olan yoğun bir ilanın fışıltısını eşitdi. İlan isə Madarın kəldiyini çoxdan gördüyündən qacmağa hazırlaşır,

özünü müdafiə etmək üçün fışıldayırdı. Madar ilanı görəndə susuzluğunu unutdu. İlan burula-burula qaçır, Madar ondan əl çəkmir, harası gəldi ağacla vururdu. Nəhayət o, ilanı yaraladı. Ancaq öldürə bilmədi.

Madar atasından dəfələrlə eşitmişdi ki, ilanı gördün, öldür, öldürdün basdırma, çünki ilan ulduz görməyincə canı çıxmır. «Oğul, məndən sənə əmanət, olmaya-olmaya ilanı yaralayıb buraxasan. Çünki ev heyvanlarından dəvə, sürünənlərdən ilan çox kinli olurlar. Hətta ilanın özü səndən intiqam ala bilməsə, yoldaşları qisas alacaqdır. Odur ki, ilanı yaralayıb buraxma!»

Atasının dediyi bu sözlər Madara indiki qədər heç bir zaman təsir eləməmişdi. O, ilanı yaralayıb buraxmışdı. «Demək ilanın özü olmasa, yoldaşları məndən intiqam alacaqlar» deyə Madar dayanıb düşündü. Birdən qulaqlarına su şırıltısı gəldi. Az keçməmişdi ki, dəvə səsi eşitdi.

Qaradiz bir nər ləhrəm gəlirdi. Madarı görən kimi ona tərəf yüyürdü. Madar bir istədi dayansın, dəvənin qabağını kəsib saxlasın. Onun dizlərinə vurub yerə yatırsın və belinə minib istədiyi səmtə sürsün. Ancaq Madar dəvənin birbaş onun üstünə gəldiyini görəndən sonra qaçmağa başladı. O qaçdıqca dəvə də gedirdi. Aradan çox keçmədi ki, qaratikanlıq qurtardı. İndiyə kimi Madar kolların arasında olduğundan dəvə üçün hərəkət etmək çətin idi. Elə ki, kolluq qurtardı yenə də boş səhra başlandı, dəvə üçün əlverişli, Madardan ötrü çətinlik oldu. Madar bir tərəfdən yorğun, o biri tərəfdən susuz idi. Ancaq can hər şeydən şirindir. Qorxu yorğunluğu unutdurmuş, susuzluğu yaddan çıxarmışdı. Madarın qıçını kollar cızdığı ücün bərk göynəyirdi. O, buna da əhəmiyyət vermirdi.



Dəvə gəlir, Madar qaçırdı. Onların arasındakı məsafə o qədər də uzaq deyildi. Ən çoxu iki yüz addım da bu sürətlə hərəkət etsəydilər, dəvə Madara çatacaq, bildiyini edəcəkdi. Madar qaçır, gözləri ətrafı gəzir, arabir də qayıdıb geri baxırdı.

Düzənliyin rəngi bomboz idi. Birdən Madarın gözünə ağ torpaq sataşdı. Madar buranı hədəfə alıb yoluna davam etdi. Çatanda gördü ki, bura bir mağaradır. Özünü güclə bura pərçim elədi. Madar qıçlarını mağaranın dibinə uzadıb gözünü çölə zillədi. Dəvə gəlib çatdı. Onun iri və sallaq dodaqlarından su axırdı. Dəvə mağaranın içinə baxandan sonra bir az da qabağa addımladı. Başını irəli uzadıb dodaqları ilə elə bil məsafəni yoxladı və dərhal gözünü dağdan çəkməyib içəriyə baxdı.

Madarın da gözü çöldə, dəvənin hərəkətlərində idi. O bu qərara gəldi ki, gün batandan sonra ucu neştər bıçaqla dəvəni öldürüb qaçsın. Bu məqsədlə xurcunu acıb bıçağı çıxartdı. Birdən Madar özü bilmədən cox bərkdən içini çəkdi, o, gözlərinə inanmadı. Onun bütün bədəni lərzəyə gəldi. Sanki vücudunda bir gizilti gəzirdi. Madarın yaraladığı ilan nərin belindən sürüşüb yerə düşdü və birbaş mağaraya, Madarın üstünə yeriməyə hazırlaşırdı. Dəvə çox sakit dayanmışdı. İlan düşəndə dəvə tir-tir əsdi. Mağaraya girmək istəyirdi ki, dəvə bərkdən səsləndi. İlan dəvənin səsini eşitcək başını geri çevirdi və dəvənin dodağını dişlədi. İlan gördüyü işdən, elədiyi qəhrəmanlıqdan razı qalmış kimi bir az da lovğalandı. Qırışığını tamam açıb əsil düşmənin üstünə daha cəsarətlə getməyə üz qoydu. O, başını mağaraya soxan kimi, neştər başına sancıldı. İlan quyruğunu xeyli tərpətdi, sonra canı çıxdı. Madar çölə çıxıb ilanı da dəvənin yanına sürüdü. O dəvənin meyitinə baxıb fikrə ketdi.

Dəvə get-gedə şişirdi. Bu hal Madara cox qəribə və təəccüblü gəlirdi. «Dəvənin qarnı, qolları.
başı, boğazı qıçları bəs niyə bu qədər şişdi. İlan ki, bunun dodaqlarını çalmışdı».
Madar gecəni narahat keçirdi. Səhər gün təzəcə çırtırdı ki, iki atlı Madarın yanına gəldi. Onlar atdan düşüb hal-xoş elədilər. Çox səmimi dost kimi görüşdülər. Bunlar dəvə sahibləri idi.
Madar bunlardan öyrəndi ki, dəvə yatdığı zaman yaralı ilan sürünüb onun belinə çıxır. Dəvə dərhal bunu hiss edib hökküldəyir, belindəki haçanı tərpədib ilanı yerə salmaq istəyir. İlan isə dəvənin yununun içində möhkəmcə qıvrılıb yatır. İlanın düşmədiyini görən dəvə ayağa qalxır və baş götürüb qaçır, dəvənin qaçdığını görən indiki atlılar ilxıdan at tutub minincə dəvə gözdən itir. Heyvan kömək istəmək, çarə axtarmaq məqsədilə insan gəzir, adamlara tərəf qaçır və bu zaman Madara rast gələndə sevinir. Yüyürüb onun qarşısında dayanmaq, yerə yatıb ilanı ona nişan vermək, düşməni məhv eləmək ücün var gücü ilə qaçır. Madar da dəvənin qaçdığını, qabağına keçəni dizinin altına qoyub əzişdirəcəyini güman edib, daha sürətlə qaçmağa üz qoyur. Atlılar izlə gəlib bura çıxır, dəvənin öldüyündən xəbər tuturlar.
Madar gördüklərini və başına gələnləri atlılara nağıl edib qurtarandan sonra onlardan su istədi, atlıların birisi onu atın tərkinə alıb, uzaqdakı «Gur bulağın» qırağına apardı. Madar doyunca su içdi, əl-üzünü yuyub sərinlədi. O biri atlı bir az aralıdakı güneydən bir dəstə çiçək dərib Madara verdi və bərk-bərk tapşırdı:
Bu çiçəkləri yaranın üstünə qoy, bağla, tamam sağalıb qurtarsın.

Madar çiçəkdən bir neçəsini yarasına qoyub bağladı. Qalanını xurcuna yığdı. O, ürəyini atlılara açdı. Onlar da Ağrı dağa tərəf  getməyi məsləhət gördülər.
Bir zamanlar bu dağda elə çiçəklər bitərmiş. Elin gücü, selin gücü deyərlər. Biz sənə bəd ayaqda yoldaş, qara gündə qardaş olarıq, — dedilər.
Madar onlara razılıq eləyib ayrıldı.
«Qızılquşlar»dan çıxdığının onuncu günü Madar Ağrı dağının ətəyinə yetişdi. Dumanlı bir gün idi. Boz duman alçaq yerdən qalxır, Ağrı dağının belinə dolana-dolana başına çıxır, burada məskən salmağa can atırdı. Arabir duman aşağıda dağın ətəyindəki çəmənlik, bir-birindən gözəl və ətirli çiçəklər Madarın diqqətini cəlb edirdi. Çoban sürüsünü dağın döşünə yayıb yastı bir daşın üstündə oturmuşdu. O, yanıqlı-yanıqlı tütək çalır, arabir oxuyurdu:

Mən aşiq səfa gəldin,
Xoş gəldin, səfa gəldin.
Nə mən öldüm, qurtardım,
Nə sən insafa gəldin.

Madar çobana tərəf yeridi. Çənbər ənik tütəyin səsinə, çobanın oxumasına elə həvəslə qulaq asırdı ki, gələn adamı belə büsbütün unutmuşdu. Çoban davam edirdi:

Dağlara binə gəlləm,
Gedərəm yenə gəlləm.
Gər bir də səni görsəm,
İmana, dinə gəlləm.

Çobanın bu mahnısı Madarı sarsıtdı. Elə bil çoban bu sözləri

qəsdən deyir, Madara toxunmaq üçün bu mahnını bilə-bilə oxuyurdu.
Madar çobanla görüşdü. Çoban soruşdu:
—Cavan oğlan, xeyir ola! Bənizin saralmışdır, xəstə deyilsən ki?
Madar bir az yorğun olduğunu söylədi.
Çoban, Madara təsəlli verirmiş kimi dedi:
Dağ havası yorğunluğu çıxartmaq, rahatlıq gətirmək üçün loğmandır. Bir neçə gün mənimlə Ağrı dağının ətəklərində yaşarsan, hamısı sağalıb qurtarar.
Madar bu yerlərin havasını udmaqdan, çiçəklərini, yaşıllıqlarını seyr etməkdən doymur, çobanın sözlərindən böyük həzz alırdı. Çoban davam edirdi.
—Bir onca gün ayazdan yorğanlı, çiçəkdən döşəkli, güllərdən yastıqlı, ulduzdan çıraqlı həyat sürsən canın buz baltasına dönər. Nə qədər ömür eləsən bir dəfə də başın ağrımaz, alnın isinməz.
Madar dərindən bir ah çəkib yanıqlı-yanıqlı dedi:
-Eh, çoban qardaş! Mən can sağaltmağa, dərman etməyə gəlməmişəm. Onsuz da bədənim buz baltası kimidir. Məni buralara gətirən sədaqətdir, yolumu dağlara, dərələrə salan şah fitnəsidir, — deyə Madar cavab verdi.

Çoban gülümsündü. Qoyunlara tərəf qışqırıb sürünü üzü bəri qaytardı. Sonra Madarın üzünə diqqətlə baxıb dedi:
—Danışığından aşiqə, hərəkətlərindən sözlü adama oxşayırsan, oğlan! Sirrini mənə aç, dərdini mənə söylə, əlimdən gələni əsirgəmərəm. Sən ki öz fyağınla gəlib mənim yanıma çıxmısan, bütün sürünü yolunda qurban versəm də sənə kömək eləyəcəyəm.
Madar ürəyini açdı, qəlbini boşaltdı.
Çoban dərin fikrə getdi. Başını asta-asta yuxarı qaldırıb

dedi:
—Müşkül işə düşübsən, oğlan! Mətləbinə çatmaq üçün əziyyətlər çəkəcəksən, çətinliklərlə üz- üzə gələcəksən. İradən möhkəm, eşqin müqəddəsdirsə, axtardığını tapacaqsan. Ancaq mənim sənə deyiləsi sözüm vardır.
Çoban bu sözləri deyib ayağa durdu. Alaçığa tərəf getdi. Mis bir badya götürüb qayıtdı. Altı qara qoyunu badyaya sağdı. Qurumuş darı çörəyini südün içinə doğradı, bir qaşıq Madara verdi, birisini də özü götürdü.
—Atalar deyib ki, səhəri bərkit, günortanı tərgit. Toqqanın altını möhkəmlət, hər işdə zirək ol, hər bir kəs yeməyi nə cür yeyirsə, işi də elə görür. Yemək yeməyindən xoşum gəlir.
Sonra çoban əl saxlayıb yemədi. Madar da dayanıb yoldaşını gözlədi. Çoban bərk tövşüyürdü. Fikir və xəyalının haralarda gəzdiyini özü bilirdi. Birdən axtardığını tapmış kimi əlavə elədi:
—Hə, niyə yemirsən, yoxsa utanırsan?
Madar yeməyə başladı.
Çoban dedi:
Utancaqlıq ancaq qızları gözəlləşdirir. Mənim nəzərimdə həyalı qız ən gözəl qızdır. Üzünü həya pərdəsi örtmüş bir qızı sevməkdən böyük xoşbəxtlik yoxdur.
Madar yenə də ah çəkib dedi:
—Mənim Laləm sənin dediyin qızlardandır.
Çoban suyun qırağından 3—4 əvəlik yarpağı
qırıb badyanın içini sildi, aparıb alaçığa qoyandan sonra gəlib Madarın yanında ayaq üstə dayandı:
—Sənin bir əmman var, oğlan!
—Adım Madardır, çoban.
Madar, Madar! Pis yerə ilişmisən. Sevəndə fikirləşməmisən.

Madar gülümsündü:
Fikirləşib sevmək mümkün deyil, çoban. Sevgi baş qaldıranda insan hər şeyi unudur.
Çoban başını mənalı-mənalı tərpədib dedi:
—Hər şey unudulanda axırı Ağrı dağa gəlib cıxır, Madar! Heç bir zaman şahla naxırçının sözü düz gəlməz, suları bir yerdən axmaz. Padşah, qızını sənə vermək istəmir. Səni çöllərə salmaqdan məqsədi izi azdırmaqdır. Sən mənə de görüm, qızla üzbəüz durub kəlmə kəsmisənmi?
Madar qəhərləndi:
—Yaralı qəlbimə toxundun, çoban! Kəlmə kəsmək nədir, illərlə bir yerdə böyümüşük, günlərlə oturub, şirin söhbətlər eləmişik. Əhdiməzə vəfalı çıxacağımıza, anamızın südünə and icmişik.
Çoban Madarın danışığına diqqətlə qulaq asandan sonra başladı:
—Çiçək çoxdur, ancaq solmayanlarını görməmişəm, bəlkə dağın başında var. Bu da ki düzələn sevda deyil.
Madar soruşdu:
—Niyə? Nə olub ki?
—Çünki Ağrı dağının başında quş uçsa ancaq qanad salar. Bu dağın başı buludlar oylağı, dumanlar məskənidir. İndiyə qədər Ağrı dağının başına çıxan olmayıb.
Çobanın sözləri Madarın ruhunu sarsıda bilmədi. O, çobana cavab verdi:
—Çoban! Quşlar qanad çalıb uça bilmədikləri yerlərə mən gedərəm. Çünki məni qanadlandıran Lalənin eşqidir. Öz sədaqətimizdir, zalım şaha olan qəzəbimizdir. Lalənin məhəbbəti mənə o qədər qüvvət və güc vermişdir ki, lap günü bu gün dağın başına qalxacağam.
Çoban başını buladı:

—Cavanlıq eləyirsən, Madar! Ağrı dağının başına hələ insan ayağı dəyməyib. Nahaq yerə özünə zəhmət vermə, havayı yerə canına qəsd eləmə.
Madar soruşdu:
—Çoban, sən mənə bir şeydə kömək elə. De görüm, Ağrı dağının başında solmayan çiçək varmı?
Çoban duruxdu. Cavab verməyə çətinlik çəkib qırıq-qırıq dedi:
—Madar! Sən məni yükə saldın. Söz vermişəm ki, sənə kömək eləyəm. Eləyəcəyəm də. Ancaq qabağımı bir şey kəsir. Bir məsələ məni bərk düşündürür.
—Nə məsələdir, coban?
—Solmayan cicək tapıb aparandan sonra padşah qızı sənə verəcəkmi?
Madar çobanı inandırmağa çalışdı ki, solmayan çiçəkləri tapıb aparsa, şah Laləni ona verəcəkdir.
Çoban inamsız halda güldü:
—Hələ çox cavansan, Madar, — dedi. — Elə isə mənə qulaq as.
O, tütəyi dodaqlarına aparıb belə oxudu:

Mən aşiq arxa gərək,
Su gələ arxa gərək,
Ürəyi dərdlilərə,
Elindən arxa gərək.

Çoban çox dedi. Madar az eşitdi. Çoban dedi:
—Madar, çoxlu şahlar, çoxlu da xanlar görmüşəm, ancaq indiyə kimi nə düz sözlüsünü, nə tox gözlüsünü görməmişəm. Məndən deməkdir, indi ki, fikrin başqadır, onda gedək!
Çobanla Madar on gün Ağrı dağa dırmaşdılar. Buralar elə

duman idi ki, göz-gözü görmürdü On birinci gün duman ayazıyanda gördülər ki, dağın ətəyində alaçığın böyründədirlər.
Madar təəccüblü bir halda soruşdu:
—Bu nə sirdir, çoban?
Çoban cavab verdi:
—Əsl sirr də elə bundan ibarətdir. Nə qədər qalxırsan hərlənib yenə də buraya gəlib çıxırsan.
Madar bikeflədi. Başını aşağı salıb göy otlara baxır, sanki öz sualına çiçəklərdən cavab istəyirdi.
Çoban Madarın gözlərinə baxıb dedi:
—Oğlan! Bir dağın ki, adı Ağrı ola, ondan xeyir görmək olmaz. Onsuz da sənin ürəyində ağrı çoxdur. Ağrı dağın ağrısına tab gətirə bilməzsən. Mənim məsləhətimə qulaq as. «İşıqlı» dağa tərəf get! Bizimlə «İşıqlı» dağın arası o qədər də uzaq deyil. Gecə-gündüz yol getsən, qırxıncı gün ora çatarsan. Deyilənlərə görə «İşıqlı» dağın özü də, həndəvəri də solmaz çiçəklərlə doludur. «İşıqlı» dağa gedənlər əliboş qayıtmırlar. Əsla naümid olma! Məhəbbət yolunda çəkilən zəhmətlər vüsal vaxtı tamam unudulacaqdır.
Çoban bir əmlik quzu kəsib soyutma elədi. Madara səfər tədarükü görüb yola saldı.
—Madar, sənə bir məsləhətim də vardır: azdın, yat! Bir də qayıdanbaş məni unutma. Yolunu buradan sal, malım-dövlətim olmasa da qolumun gücü ilə sənə kömək edərəm.
Madar otuz gün, otuz gecə yol gedəndən sonra «İşıqlı» dağ uzaqdan güclə göründü. İndi Madar, adətən yerimir, sanki uçurdu. O, əsla yorğunluqdan şikayətlənmirdi. Bir an belə Lalə onun yadından çıxmır, surəti gözündən uzaqlaşmırdı. Lalənin son sözü Madarın qoluna qüvvət, dizlərinə taqət, gözlərinə işıq verirdi. «Mən dünyada sağ qalsam Madarın,

ölsəm qara torpağın olacağam».
Madar dayanmadan gedirdi. Artıq yolun ömrü gödəlir, mənzil yaxınlaşırdı.
Otuz beşincii günü Madar «Çınqıllıya» çatdı. Bura, hər tərəfi iri daşlarla örtülü idi. Daşların üstü mamır bağlamışdı. Bir-birindən yekə olan bu daşların tarixini yazıb öyrənən olmadığı kimi, nə üçün «İşıqlı» dağa bitişik deyil, ondan xeyli aralıda olduğu da heç kəsi maraqlandırmamışdı. «Çınqıllı» dakı daşlar təkcə Madarı maraqlandırmağa başladı, o bu daşların üzəri ilə gedib «İşıqlı» dağa çıxmalı, solmaz çiçəkləri dərməli idi. Daşların üstündən yol yox idi. Lakin bunlar daşdan, qayalıqlardan cox daşa dönmüş insan bədənlərinə oxşayırdılar. Madar gördüyünə təəccüb etdi. Burada ləngiməyib yoluna düzəldi.
Ayaqlarının altı bərk ağrıyır, elə bil ki, bu daşlar qıçlarından asılmışdı. Günəş «İşıqlı» dağın başında dayanan zaman Madar gözlərinə inanmadı. «Çınqıllı» sanki yarıldı. Madar geniş bir çəmənə düşdü. Otlardan, çiçəklərdən qalxan ətir bir-birinə qarışdıqca doğrudan da Madar bihuş olmaq dərəcəsinə gəldi.
Madar oturub dincəldi. Uzun günlərin yorğunluğu, «Çınqıllı»nın əziyyəti onu o qədər yorub əldən salmışdı ki, çəməndə uzanıb yatmağı, əməl-li-başlı dincəlib istirahət etməyi qərara aldı. Ancaq rahat ola bilmirdi. Çünki «İşıqlı» dağa catmağa hələ xeyli yol var idi. Bir də əsas məsələ, solmaz çiçəkləri tapmaq arzusu bir an belə onun fikrindən çıxmırdı. Bundan başqa axşama da az qalırdı. Harada gecələmək haqqında düşünməli idi. Bu fikirləri müxtəlif yerə yoza-yoza çiçəklərin üstünə uzandı və onu yuxu apardı. «İşıqlı» dağdan gələn sərin meh ona toxunduqca əzab və əziyyət belə bədənindən çıxır, ağrıları azalır, özünü qüvvətli

hiss edirdi.
Madar yenicə gözlərini yumub çimir eləyirdi ki, otların arası ilə donquldana-donquldana gələn bir ayını gördü. Madar dərhal durub oturdu. Ölümünü yəqin edib ucu neştər bıçağı hazırladı, Ayı gəlib Madara çatanda dayandı. Bu ayı dərisinə girmiş insana oxşayırdı. Onun əlləri, ayaqları, pəncələri, dırnaqları, qıllı dərisi ayı idi ki, durmuşdu. Səsi, danışığı insan idi və buna heç bir şübhə yox idi.
Ayı Madara «xoş gəldin» elədi. Madar təəccübündən yerindəcə donub qalmışdı. O, gözlərina inanmasa da, ayının insan kimi danışığı, çox mülayim halda «xoş gəlmisən» deməsi günəş kimi, çiçəklər kimi, çınqıllı daşlar kimi bir həqiqət idi. Ayının «xoş gəldisindən» sonra danışıq kəsildi. Onlar uzun müddət bir-birinə cox dərindən, mənalı-mənalı baxdılar. Madar ayının iri gözlərinə, qalın qaşlarına, geniş sinəsinə baxdıqca, ayı da onun qüvvətli qol-qışlarına nəzər salırdı.
Madar birdən-birə ayının taleyindən xəbər tutmağa cəsarət etmədi. Ayı isə bir müddət Madarın əlindəki qoşadüyün zoğal ağacına, naxışlı xurcuna gözlərini zillədikdən sonra soruşdu:
—Oğlan, sən hara, bura hara? «Çınqıllı»nın ortasındakı bu çəmənliyə indiyə qədər insan ayağı dəyməyib. Quşlar belə cürət edib buradakı çiçəklərin üstü ilə uçmayıblar. Sən necə ürək edib bura gəldin? Eşitməmisən ki, bura gələnlər sağ qayıtmazlar. Nə üçün özün öz ayağınla gəlib qəssabxanaya girdin? Heç bilmirəm səni buradan necə xilas eləyim?
Madar cavab verdi:
—Ağrı dağın ətəklərində qoyun otaran bir çoban «İşıqlı» dağı mənə nişan verdi. Olmaya mən yol azmışam?
Ayı dedi:

—«İşıqlı» dağın yolu çox aşağıdandır. «Çınqıllı»nın yanından keçməlisən. —Sonra çömbək oturub soruşdu: —«İşıqlı» dağa getməkdən məqsədin nədir? Haralısan? Kimsən?

Madar ürəyindəkiləri açdı. Ayı bərk hirsləndi. Qəzəbindən yerdə otura bilməyib böyük və geniş bir meydanı xatırladan çəmənlikdə gəzdikdən sonra yenə də Madarın yanına gəlib dedi:

—Bir qızın, özü də şah qızının sözünə uyub özünü çöllərə salan oğlanlardan mənim xoşum gəlmir. Çünki şah qızlarının əhdi-peymanına, onların eşqə sadiq, məhəbbətə vəfalı çıxmasına mən əsla inanmıram. Bəlkə sənin şübhən vardır. Birdən ağlına gələr ki, insan dili ilə danışan ayının qızlar haqqında dediyi bu sözlər başdan- ayağa böhtandır. Xeyr. Böhtan deyil. Ömrümdə mənim dilimə yalan gəlməyib. Mən düzünü deyirəm. Padşah sözünə uyub özünü çöllərə salan oğlanların həmişə başı yox, ayağı işlər... Bir də padşahların ürəyində insaf, rəhm, başlarında ağıl olsaydı, bu gördüyün çınqıllarda saysız-hesabsız insan bədəni daşa dönməzdi, oğlan! Axı başına gələn başmaqçı olar deyərlər. Mən bunları öz başıma gələnlərə əsasən deyirəm.

Madar bu sözləri eşidib qulaqlarına inanmadı. Sual vermək istəyirdi ki, ayı sözünə davam etdi:

—İndi, oğlan, gün batır, yeməyə nəyin var?

Madar əlini xurcuna atdı. Quru çörəkləri çıxarıb göstərdi. Ayı başını buladı.

Quru çörəklə səfərə çıxan igidlərin aqibəti məlumdur. Sən burada otur, heç yana getmə, — deyib aralandı və gözdən itdi.

Günəş batırdı. Dağlardan bərk soyuq qalxırdı. «Çınqıllı»nın daşları vahiməli bir şəkildə hər tərəfdən baş qaldırıb sanki

bu çəmənliyi məngənədə sıxırdı.
Ayının sözləri bir an belə Madarın yadından çıxmırdı.
Ayının taleyi isə Madarın varlığını
sarsıtdı. Qızlar haqqında dediklərinə Madar da acıqlandı.
Lalə kimi qızların haqqında bu cür sözlər ədalətsizlikdir.
Ayı qayıdıb gəldi. Xeyli bişmiş ət gətirdi. Madar soruşmadan ətdən yeməyə başladı. Ov əti idi. O qədər ləzzətli idi ki... Madar yeyib doyandan sonra ayı dedi:
İndi dur dalımca gəl, gedək su iç!
Onlar bir az getdikdən sonra yenə də «Çınqıllı»nın içinə girdilər. Burada buzdan soyuq, baldan şirin su var idi.
Madar doyunca icdi. Durub getmək istədikdə ayı mane oldu.
Gecə burada daldalanacaqsan. Çünki bura dalda olduğundan bir az istidir.
Madar oturdu. Ayı gözlərini onun gözlərinə zilləyib bir az baxandan sonra dərindən ah çəkib dedi:
—Adın nədir, oğlan?
—Madar.
Padşahın qurduğu tora «Çınqıllı»da düşən Madar! Qulaq as, başıma gələn qəziyyəni sənə nağıl eləyim.
Madar sal daşın üstündə yerini rahatlayıb ayını diqqətlə dinləməyə başladı.
Ayı dedi:
—Mən də sənin kimi yoxsul oğlu idim. Atam odun satmaqla bir çətən külfət saxlayırdı. Atamın oğlu olur, qalmırdı. Axırda məni yeddilər üstündə, yəni yeddi qızdan sonra tapdıqları üçün adımı Tapdıq qoyurlar. On səkkiz yaşım tamam olandan sonra dünyadakı işlərlə birlikdə eşq, məhəbbət, sevgi nə olduğunu anladım. Kəndimizdən bəhrə yığan xanın qızına aşiq oldum.Günəş onun gözəlliyini görəndə buludlar dalında gizlənirdi, ay onun sifətinə

baxanda öz rənginə ləkə düşürdü. Biz bir-birimizi sönməz eşqlə sevirdik. Xan buna razı deyildi. Qızın adı Ceyran idi. O, həqiqətən ceyran duruşlu, maral baxışlı idi.
Razılığı ilə mən onu götürüb qaçırtdım. Yoxsa xan hər ikimizi öldürə bilərdi. Xanın məni istəməməsinə səbəb var idi. Bir dəfə Ceyranın başını sinəmə sıxıb saçını sığallayanda görmüşdü. Darğadan mənə xəbər göndərmişdi ki, «Qırx it küçüyüm olsa, birini də ona verməərəm». Mən əhvalatı Ceyrana yetirdim. O, «Tapdıq, məni götür qaç, hara istəyirsən apar, mən sənsiz yaşaya bilmərəm. Sənin ayrılığına tab gətirə bilmərəm. Biz ancaq birlikdə xoşbəxt ola bilərik» dedi. Mən Ceyranın sözünə baxıb kənddən çıxdım. Ata-anamdan ayrıldım, insanlardan aralandım. Bir aylıq yol gedəndən sonra «Çınqıllı»nın arasındakı bu çəmənliyə catdıq. Buradakı otlar və cicəklər, hava və su, günəş və axar-baxar Ceyrana çox xoş kəldi. «Burada asudə ömür sürərik, Tapdıq» deyə o, qollarını boynuma doladı. Bizim evimiz çınqıllı daşların altı, seyrəngahımız çiçəkli düz oldu. Mən gündüzlər ovlayır, gətirir, Ceyranla birlikdə yeyirdik. Mən bu yaşayışdan yorulurdum. Kəndimizə qayıtmaq, ata-anamı görmək istəyirdim. Ceyran isə tərsinə, çiçəklər arasında gəzmək, qayalar altında yatmaq və ov əti yeməkdən həzz alırdı. Bir dəfə də olsa kəndi yad etmir, ata-anasını xatırlamırdı. «Nə qədər insanlardan aralı yaşasaq, xatadan-bəladan, söz-sovdan, böhtan və iftiradan bir qədər uzaq olarıq». Ceyranın bu sözləri məni inandırdı.
Mən səhər tezdən durub ova kedəndə Ceyranı yuxulu qoyub ayrılırdım. Gün çeşt yerinə qalxanda mən qayıdırdım. Ceyran gəldiyimi görən kimi qabağıma yüyürür, məni salamlayır, qucağıma atılır, məni bağrına basır, gözlərimdən öpürdü. Sonra da vurduğum ovun bir tərəfindən yapışıb

mənə kömək edirdi. Mənzilimizə çatan kimi gözlərini gözlərimə zilləyib baxır, sonra yenə də özünü qucağıma atıb uşaq kimi mənimlə oynayırdı. Hər dəfə başını sinəmə söykəyən zaman gülə-gülə deyirdi: «Görəsən bu dünyada bizdən xoşbəxt yaşayan, bizdən bəxtəvər həyat sürən varmı?» Az keçmədən öz
sualına özü cavab verərdi: «Yoxdur, olmayacaqdır». Sonra utana-utana əlavə eləyirdi: Tapdıq oğlan olsa adını mən, qız olsa sən qoy...» Düzünü deyim ki, mən yaşayışımızdan çox razı idim. Hər dəfə Ceyranı yanımda görəndə elə bilirdim ki, doğma kəndimizdəyəm. Atam da, anam da burdadır və mənimlə şirin-şirin söhbət edirlər. Ceyran mənə hər şeyi unutdurmuşdu. O, nəinki qəlbimə yol tapıb oradakı bütün sirləri öyrənmişdi.  Hətta beynimə də girmişdi. Ondan gizli sirrim, sözüm yox idi. Ova gedəndə gördüklərimi, rast gəldiklərimi eynilə ona danışardım. Gecə gördüyüm yuxunu hər gün ona nağıl eləyərdim. Onunla danışmaq üçün coxlu və məzəli söz tapmağa çalışardım. Aramla və uzada-uzada ona nağıl deyər, mahnı oxuyardım. Günlərimiz şən keçirdi. Ceyran gündən-günə qəşəngləşir, mənim gözümdə qənirsiz gözələ dönürdü.

Mən həmişə ovdan qayıdanda, o bişirdiyi pencərdən bir-iki tikə mənə uzadır, «gör necə dadlıdır» deyərdi.
Bir gün qayıdanda onu çiçəklər arasında uzanmış gördüm. Yanağındakı qızartı azalmışdı. Bişirdiyi pencər azca dadsız idi. Sifətinə baxanda gözlərindəki duruluq azca bulanmışdı. Məni  görən kimi sıçrayıb ayağa qalxdı. Yenə də qollarını boynuma doladı. Əllərindəki hərarət azca soyumuşdu. Başını sinəmə söykədi. Saçını sığalladım. Tükləri azca codlaşmışdı. Nəfəsini qoxuladım!. Azca ağırlaşmışdı. Ürək döyüntüsünə qulaq asdım. Tez-tez döyünürdü. Mən Ceyrana

heç bir söz demədim. Ondan bir kəlmə də olsun söz soruşmadım. Yeyib-içdik, gəzib-dolandıq. Uzanıb dincəldik. Axşam yatdıq. Ceyrandakı dəyişiklik məni şübhələndirmişdi. Gözümü yumsam da yatmırdım. O da yata bilmirdi. Nə barədə isə bərk fikirləşirdi... Səbəbini soruşdum. Doluxsundu... «Kəndimiz yadıma düşüb, ata-anamı könlüm istəyir», dedi. Mən inandım. Əvvəlcə bir az toxtaqlıq verdim.

Sonra ovundurmaq üçün nağıl danışdım. Yatdıq. Mən səhər durub gedəndə onun sifətinə baxdım. Həmişə parlaq və şən olan gözlərində bu səhər narahatlıq və kədər vardı. O məni ova buraxmaq istəmədi. Yalvardı-yaxardı, sonra özünü ələ alıb:
«Get, — dedi, — amma ehtiyatlı ol, tez qayıt» Mən ondan ancaq yavaş-yavaş zümzümə edib aralandım:

Ey mənim bəxtiyarım
Qəlbimin taxtı yarım.
Üzündə göz izi var
Sənə kim baxdı, yarım.

Mənim şübhəm bir az artdı. Axı, Ceyran mənə heç vaxt bu sözləri deməmişdi. Yola düzəldim.

O gün mənimki gətirmədi. Qabağıma ov çıxmadı. Əliboş qayıtdım. Ceyran görünmürdü. Mən bərk narahat oldum. Böyük təlaş içində özümü çiçəkli düzə yetirdim. Ceyran yuxulamışdı. Rəngi bir az da solmuşdu. Boğazında ləkə var idi. Saçları pərişan idi. Mən səslədim. O, gözlərini açan kimi durub qucağıma girdi. Qollarını boynuma doladı. Ancaq üzümə baxmadı. Mən onun çənəsindən qaldırıb sifətinə baxdım. O, gözlərini yerə zilləyib mənə baxmaq istəmirdi. Yenə də sual- cavabı artıq bildim. Bişirdiyi

pencərdən dadar-doymaz yedim. Bu gün qara suda təm var idi, pencərdə dad yox idi. Durub xeyli dolandıq, gözlərini qaldırıb üzümə baxmırdı. Tez-tez ah çəkirdi. Mən belə güman etdim ki, Ceyran ata-anasından ötrü, kənd üçün bərk darıxır. O idi ki, səhər gedib ov eləyəndən sonra Ceyranı götürüb kəndə qayıtmağı qət elədim. Fikrimi Ceyrana dedim: «Özün bilərsən» deyə soyuq bir cavabla kifayətləndi. Səhər durub gedəndə Ceyrana baxdım. Onun sinəsi də azca cızılmışdı.

O gün yaxşı ov elədim. Həm keçi vurmuşdum, həm dörd çil ovlamışdım. Yaxşı oldu, dedim, yolda yeyərik. Sevincək halda qayıtdım. Çox intizarlı idim. Elə darıxırdım ki, az qala boğulurdum. Bilmirəm nədənsə ürəyim aramsız halda döyünürdü. Hərdən dayanıb durur, fikirləşirdim, ömrümdə birinci dəfə idi ki, yorulmuşdum. Qıçlarımı güclə çəkib aparırdım. Oturub dincimi almaq istədim. Durduğum yerdə əllərim əsdi. Ürəyimə bir üşütmə gəldi. Ayağa qalxdığım vaxt elə bil belim qırıldı. Çox cətinliklə gəlib çiçəkli düzə çatdım. Yenə də çağırdım. Hay verən olmadı. Könülsüz halda addımladım. O dünənki yerdə uzanıb yatmışdı. Yanında üzəri naxışlı gödəkçə bir ağac var idi, Aralıda, çiçəkliyin üstündə rəd görünürdü. Başını dizimə aldım. Kürəyindən, qollarından qan axırdı. Döyülənə oxşayırdı. Lakin onu burada kim döyə bilərdi? Huşu da özündə deyildi. Güclə gözlərini açdı, xırıltılı səslə: «Tapdıq, buradan məni də götür qaç!» dedi və yenə də gözlərini yumdu. Mən heyrətlə ətrafa baxdım. Yanındakı ağacı götürmək istəyirdim ki, heybətli bir səs eşitdim. Diksinib geri çəkildim. Nə görsəm yaxşıdır? Bığıburma, qolları çirməkli bir nəfər mənə sarı gəlir. Məsələni anladım. Mən irəli yeriyib onu parçalamaq istədikdə həmin oğlan gülüb dedi:

—Tapdıq, zəhmət çəkib özünə əziyyət vermə! Mən pəhləvanların arxasını yerə qoyan tilsimli adamam. Heç kəs mənim sehrimdən qurtarmaz, əlimdən xilas ola bilməz. Mən səni istədiyim surətlərə sala bilərəm. Hətta istəsəm quru daşa döndərə bilərəm. İndi özün bil. Yaşamaq istəyirsənsə, ayı kimi dolan, ömür sür. İstəmirsənsə, səni bu saat daşa çevirib Çınqıllıya tullaram.
Bu zaman Ceyran gözlərini açdı.
—Yox, ona toxunma, yalvarıram, ayıya döndər, daşa döndərmə, heç olmasa səsini eşidib təsəlli taparam, —deyib yenə də gözlərini yumdu.
-Madar! Ömür şirindir. Hamı yaşamaq istəyir. Həyat gözəldir. Bir də Ceyranı burada kimsəsiz qoyub daşa dönməkdənsə ayı olmaq yaxşıdır. Mən ayı qalmağıma razı oldum. Tilsimli adam bir ağac zərbəsi ilə məni ayıya döndərdi. Ceyranı isə huşsuz halda haraya isə apardı. İndi bildin ki, bura haradır, cavan oğlan? Bura şahların tilsimə saldıqları, daşa döndərdikləri günahsız adamların məskənidir. Nə bilirsən ki, padşah səni də buralara qəsdən göndərməyib?
Madar nə edəcəyini, nə cavab verəcəyini bilmirdi. Onun qorxudan bədəni əsim-əsim əsirdi. Bir xeyli keçəndən sonra Madar toxtadı, ayının qəzəbi soyudu. Birlikdə düşündülər.
Madar soruşdu:
Nə çarə tapmaq ki, tilsimi qıraq, səni adam eləyək, Ceyranı da qurtaraq?
Ayı cavab verdi:
Bu mümkün deyil, Madar!



Nə üçün?
Çünki hər şey o ağacdadır. Ağac isə ya oğlanda, ya Ceyranda olur. Onları tapmaq çətin, ağacı ələ keçirmək müşküldür.
Madar ürəkdən gələn bir səslə dedi:
—Dünyada heç bir şey insan əlindən qurtara bilməz!
Ayı dedi:
—Məni ayı eləyən gündən başımda bərk bir ağrı peyda olubdur. Nə qədər çalışıram kəsmir. Hərgah başımın ağrısı kəssə, ayı kimi yaşamağa da razıyam. Ancaq başağrısı kəsmir ki, kəsmir.
Madar ayı ilə görüşüb yola düşəndə, qırxdan bir əskik gün idi ki, Ağrı dağdan çıxıb ayaq döyürdü.
«Çınqıllı»dan sonra pöhrə bir meşəlik başladı. Cavan ağaclar yarpaqladığından günəşin qabağını kəsir, Madar getdikcə sərinlikdən ləzzət alırdı. Palıd ağacları qurtarıb ardıc ağacları başlayanda Madar üzüaşağı endi. Enişin lap qurtaracağında tikili görünürdü. İnsan hənirtisi eşidilirdi.
Madar tikiliyə çatanda ortayaşlı bir adamın dəyirman arxının qırağında oturub mürgülədiyini gördü. Madarın ayaq səsinə həmin şəxs gözlərini açdı. Etina edib ayağa durmadı. Madarın salamını könülsüz alıb dedi:
—Uzaq yol gəlmisən, otur dincəl, arxın qırağı əyləşmək üçün çox münasibdir. Səfərin yaxındırsa yoluna davam et!
Madar əyləşdi. Onun dəyirmançı zənn etdiyi kişi soruşdu:
—Gəlişin haradandır? Səfərin harayadır? Məqsədin nədir?
Madar başına gələnləri danışdı, ürəyini açdı. Kişi kədərli bir ah çəkib dedi:
—Bu dünyada «oxqay»la ömür sürən yoxdur, oğlan! Mən pəhləvandım, sənətim kuştu tutmaq, igidlərlə güləşmək, onların arxasını yerə vurmaq idi. Ancaq üç aydan artıqdır ki,

bəxtim gülmür, taleyim uğursuz olur. Hər kəslə güləşirəm, basılıram. Ona görə də camaat içində otura bilməyib baş götürüb buraya gəlmişəm. Yolla gedənlər məni dəyirmançı sayır. Mən isə... — O daha danışmayıb yenə də bərkdən köksünü ötürdü.
Madar «İşıqlı» dağı soruşdu. Kişi bir az bələdçilik edib yol göstərdi, sonra görüşüb ayrıldılar.
Madar «İşıqlı» dağa tərəf yeridi. Kişi dəyirmana sarı qayıtdı.
Madar həmin gün axşama kimi yol getdi. Kölgə təpələri bürüyəndə Madar sanki üz-gözünü günəş qarsımış, oddaq olmuş bir torpağa çatdı. Burada canlıdan əsər, bitkidən nişanə yox idi. Gün batmasına baxmayaraq, buranın havası ağır idi. Madar güclə nəfəsini dərdi və yoluna davam etdi.
Axşamdan xeyli keçmiş ay doğdu. Göz işlədikcə uzanan çöllər, düzlər, daşlar, otlar nura boyandı. Madar bələd olmadığı üçün yolu itirmişdi. Dərhal çobanın məsləhəti yadına düşdü: «Azdın yat». Madar yolda keçəni səhər elədi.
Günəş «İşıqlı» dağdan doğub düzlərə düşdüyü zaman Madar üzü dağa tərəf yollandı. Quru səhra uzanır, Madarın könlü bulanırdı. O bu yerlərin tezliklə qurtarması haqqında düşünən zaman sifətcə arıq, vücudca qıvraq, hərəkətcə mülayim bir adamın yol qırağında dayanıb öz-özü ilə danışdığına rast gəldi.
Madar salam verən kimi kişi ayağa durub baş əydi.
Əyləşmək üçün işarə elədi. Madar oturdu. Kişi soruşdu:
—Mənzilin haradır, oğlan?
—«İşıqlı» dağa.
—«İşıqlı» dağda muradına çatasan!
Madar axşama kimi «İşıqlı» dağa çata biləcəyini xəbər aldıqda kişi cavab verdi:
—Sağlıq olsa, gün əyiləndə «İşıqlı» dağda olarsan,

məqsədin nədir, oğlan?
Madar başına gələnləri danışdı, ürəyindəkiləri açdı.
Kişi ayağa durdu. Onun yaşı çox deyildi. Ancaq beli əyilmişdi. Madarın diqqətlə baxdığını görən kişi bir az qabağa yeriyib əli ilə boş çölləri göstərdi. Məhsul verməyən torpaqlara işarə eləyib dedi:
—Bu torpaqlar mənimdir. Şah üzünə ağ olduğum üçün məni buraya göndəribdir. Nə əkirəmsə bitmir. Toxumum batır, zəhmətim əlimdə qalır. Yağış vaxtında yağsa da, əkin faraş olsa da heç nə göyərmir. Odur ki, vaxtsız qocalmışam, otuz yaşında belim bükülüb. Dərdimi hər kəsə demişəm, dərman verən olmayıb...
Madar kişi ilə görüşüb yoluna davam etdi.
Deyilən vaxtdan bir az qabaq balaca cığırların birləşdiyi yerdə rəngi torpağın rəngindən boz bir qayanın yanına çatdı. Qayanın içərisinə yol gedirdi. Onu fikir aparmışdı. Qayanın içinə kirən bir cüt ağ köyərçinin qanad səsinə Madar ayıldı. Göyərçinlər dilə gəlib danışdı. Madar sirrini açdı, dərdini söylədi. Ana göyərçin dedi:



—Ürəyindəki arzular baş tutacaqdır, Madar! Öz kücünə, bacarığına inanan, ağıllı məsləhətə qulaq asan hər insan arzularına çatmalıdır. Ayının tilsimə salındığı çəmən solmaz çiçəklə doludur. Oradakı çiçəklər heç vaxt solmur. Ancaq oradan çiçək dərməyə ayı razı olmaz. Sən, solmaz çiçək aparmaq üçün ayını öldürməlisən...
Madar udquna-udquna dedi:
—Mən söz vermişəm ki, ayını yenə insan eləyim.
—Bu mümkün deyil, Madar, ayını insan eləmək üçün tilsimli adam öldürülməlidir. Bu isə asan iş deyildir.
Madar mat-mat baxır, göyərçini dinləyirdi. Göyərçin isə davam edirdi:
—Dəyirman arxının qırağında rast gəldiyin adam pəhləvan deyildir. O padşahdır. Özü də arvaddır. Əgər basılmaq istəmirsə ərə getsin. Ərə gedəndən sonra kimlə müharibə eləsə qalib gələcək. Beli bükülmüş qoca öz torpağından nahaq yerə şikayət eləyir. Torpaqda ona görə bitki bitmir ki, torpağın altı qızıl küpləri ilə doludur. Qızıl küplərini çıxarandan sonra torpağa nə səpsə bol məhsul götürəcək. Madar, «İşıqlı» dağa getmə, bir-iki gün səbir eləsən, sənə güclü kömək gələcək. Yolda gördüklərinin və rast gəldiklərinin hamısı sənin dalınca gəlməkdədir. Özündən muğayat ol, Madar! Solmaz çiçək aparıb həsrətə qovuşmaq asan iş deyil. Çiçək var, aparmaq öz əlindədir. Ayının baş ağrısının səbəbi isə çiçəklərin ətridir. Bacarığına və dostlarının köməyinə əminsənsə səbir et, arzuna çatarsan.
Göyərçinlər qanad çalıb uçdular. Dan yeri yenicə sökülürdü. Quşların səsindən başqa bir səs eşidilmirdi. Səhər ertənin soyuğundanmı, göyərçinlərin dediklərinin təsirindənmi

Madarı titrətmə tutdu. Günəş otların şehini qurudanda Madar cığırlardan birinə endi.
Madardan xəbər yox idi. Lalə xanımın səbri tükənmiş, yuxusu ərşə çəkilmişdi. Ağlamaqdan göz yaşı sifətində yol salmışdı. Qırmızı yanaqlarına ləkə, ürəyinə xal düşmüşdü. Lalə əvvəlcə bu qərara gəldi ki, şahın məşhur atıcısını da götürüb Madarın dalınca getsin. Sonra bu qərardan əl çəkdi. «Atam xəbər tutsa, hər ikimizi tutdurar, bəlkə də öldürər. Ayrı cür hərəkət etmək lazımdır» deyə fikirləşdi.
Lalə xanım məşhur atıcını yanına çağırtdırdı:
—Sən bizim sarayın sadiq adamlarındansan. Atdığın yayınmayıb, iynəni deşiyindən, milçəyi gözündən vurursan. İkimizin arasında qalmaq şərti ilə sənə bir tapşırıq verəcəyəm.
Atıcı dümdüz dayanıb şahzadənin sözlərini dinləyirdi. Lalə isə davam edirdi:
—Bəyəndiyin atlardan birisini min. Etibar eləyib kürək çevirdiyin oğlanlardan bir neçəsini yanına al. Qızılquşu götür, ox-yayını çiyninə sal. Ova getmək bəhanəsi ilə Madarı axtarmağa üz qoy, hərgah Madarı tapıb sağ-salamat mənə yetirsən, dünya malından qane olacaqsan. Bərkə düşsən mənə xəbər göndər.
Atıcı heç bir söz deməyib sağ əlini gözünün üstünə qoydu. Lalənin yanından çıxan gecə yola düşdü. Bunlar Madarın getdiyi yolla yox, yaxın yolla getdi. Birbaş dağa tərəf yollandılar. Yolda dəvə sahiblərinə rast gəldilər. Onlara məsələni açdılar. Dəvə sahibləri atlanıb Madara kömək etmək üçün Lalənin adamlarına qoşuldular.
Atıcı atın başını buraxır, uzaq mənzili qısaldır, uzun yolları gödəldirdi. Madarın beş günlük yolunu bir günə qət edə-edə Ağrı dağa yetişdilər. Çobana rast gəldilər. Əhvalatı

söylədikdə çoban ah çəkib dedi:
—Mən onu «İşıqlı» dağa yola saldım.
Atlılar atın boynuna vurub yola düzələndə çoban da onlara qoşuldu.
Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər. Təpələrdən yel kimi, dərələrdən sel kimi addadılar. Gündə bir mənzil keçib, axır gəlib «Çınqıllı»ya yaxınlaşdılar. Bura atla girmək mümkün deyildi. Onlar Çınqıllının ətrafında dolanıb «İşıqlı» dağa getməyə çalışdıqları gün Madar göyərçinin məsləhətinə əməl edib geri qayıdırdı.
O, əvvəlcə beli bükülmüş kişi ilə görüşdü. Göyərçinin dediklərini söyləyəndə kişinin sevincindən qəddi düzəldi. Əvvəlki gəncliyi özünə qayıtdı. Rənginə qan, vücuduna qüvvət gəldi. Gözünün işığı qat-qat çoxaldı. O, Madara dərindən razılıq eləyəndən sonra lap onun yanına gəldi. Əlini onun toqqasına salıb səmimi surətdə dedi:
—Bu sirri bir sən bilirsən, bir də mən. Xahiş eləyirəm bir müddətləngi, mənə kömək elə! Qızıl küplərini yerin altından çıxar, qardaş malı kimi yarı bölək.
Madar başını buladı.
—Yox, — dedi, — ata-anamın, kəndimizin, Lalənin gözü yoldadır. Onlar qızılı yox, məni gözləyirlər. Mənə dünyanın ləl-cəvahiratı, qaş- daşı yox, təkcə, Lalə lazımdır, — deyib kişiyə əl uzatdı. Kişi Madarın dalınca xeyli baxandan sonra dedi:
—Dost yanında başıuca, düşmən yanında dili uzun, ailə yanında alnıaçıq olasan. Get, sənə uğurlar olsun. İndi ki, belədir, hələlik bu qızıllar mənə də gərək deyil, bir vaxt olar bizim işimizə yarayar. İndi hara getsən mən də səninləyəm.
İki gün sonra Madar dəyirman arxının qırağında oturmuş kişiyə salam verdi. Göyərçinin dediklərini söyləyəndə

kişinin rəngi qızarıb gözəlləşdi. Başından papağı düşdü. Qulac saçları, kürəyinin arasında ilan kimi qıvrıldı. Qız dedi:

—Göyərçinin dedikləri düzdür. Mən bir cavan gəlindim, gərdəyim yığılmamış, məclisim dağılmamış ərimi öldürdülər. Mənim qadın və dul olduğumu bir sən bilirsən, bir də mən. Gəl məni al. Padşahlıq taxtımda əyləş! Müharibə eləyib qalib gələk. Nakam getmiş ərimin intiqamını alaq. Nə qədər ömrümüz varsa, eyş-işrətdə keçsin. Dünyada ehtiyac, qəm, kədər, nə olduğunu bilməyək. İstədiyimiz yerlərə gedək, kefimiz çəkən nemətləri yeyək.

Madar razılaşmayıb dedi:

—Mən Laləyə söz vermişəm. Məni gözləyəcəkdir. Məhəbbətə xəyanət olmaz. Əsil sevgililər bir- birinin hicranına dözməli, ayrılığına tab gətirməlidirlər.

Padşah qız qollarını Madarın boynuna dolayıb alnından öpdü.

—Halal olsun anadan əmdiyin süd. Sənin yarın dünyanın ən bəxtəvər adamıdır. Tamahsızlıqda tarixlərə düşməli, sədaqətdə kitablara yazılmalısan. Arzum budur düşmənlərin puç, rəqiblərin xar olsun. Yarınla sənin arana girmək istəyənin gözünə ox batsın. Ancaq oğlan, hər vaxt ehtiyatlı və sayıq ol! Görürəm ürəyin çox təmizdir. Rast gəldiyin adamlara dərhal sirrini vermə!



F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elektron Kitabları

Madar dəyirman dərəsinin başına çıxanda, atlılar düzlərə səpələnib onu gəzirdilər.
Madarın çəmənliyə gəldiyini, ayı ilə söhbət elədiyini tilsimli adam bilmişdi. O hər gün günəş Ağrı dağın başında dövrə vuran vaxt naxışlı ağacla ayını yoruluncaya qədər döyür, daşa döndərir, sonra yenə də ayı eləyir, çiçəkləri güdməsini tapşırırdı. Tilsimli adam hiss eləmişdi ki, çəmənlikdən çiçək aparmağa gələn var. O idi ki, ayını döyür, qorxudur, «çiçək aparılsa ömürlük daşa dönəcəksən» sözləri ilə hədələyirdi.
Madarla atlıların bir-birini tapmasına və görüşməsinə bir günlük yol qalmışdı ki, qızılquş atıcının qolundan qanad çalıb uçdu və «Çınqıllı»ya girdi. Atıcı atı yoldaşlarına verib burada gözləmələrini tapşırdı, özü quşun dalına düşüb getdi. Quş bir az uçur, iri daşların üstünə qonur, dincəlir, nəfəsini dərir, sahibi yaxınlaşanda yenə də qanad çalırdı. Beləliklə, bir gün səhərdən axşama kimi uçdu, atıcı getdi, axşam qızılquş gözdən itdi. Sahibi qaranlıqda quşu axtarmağı faydasız bilib göy bir qayanın dibində gecələdi. Hava soyuq idi. Atıcı qayanın yarğanına güclə yerləşdi. Yeri bir az isinmişdi ki, səs eşitdi. Diqqətlə qulaq asdı. İki nəfər idi. Özləri görünmürdü, səsləri eşidilirdi. Onlardan birisi deyirdi:
—Bu gün də bir şey eləyə bilmədim. Nə qədər kölgəyə gəldim. Yatdığı yeri tapmadım.
Çoban gülüb dedi:
—Tilsimləri qıran, sehrbazların, ovsunçuların puçluğunu ifşa edən insandır, onun ağlıdır, həyatın əşrəfisi, dünyanın şöhrəti insandır. Ömrə zinət verən insan oğludur. Biz hamımız buraya gəlmişik ki, tilsimləri qıraq, kilidli qapıları açaq, dustaq könüllərə azadlıq verək, həsrətliləri qovuşduraq, solmaz çiçəklər burada harada varsa tapaq,

çiçək bitmiş torpaqları qanımızla suvarmış olsaq belə çiçəkləri dərib aparaq, səni muradına çatdıraq.
Çobanın sözü qurtarmamışdı ki, ox səsi eşidildi. Bu hamının diqqətini cəlb etdi. Çoban, dəvə sahibləri və Madar gözlərini «Çınqıllı»ya zillədilər. Donquldaya-donquldaya bir ayının atıcını və yoldaşlarını qovduğunu görüncə Madarın gözləri qaraldı. O, baxa bilməyib yerə oturdu.
Atıcı kamana bir ox da qoyub atdı. Ox ayının sol böyrünə sancıldı. Ayı bərkdən nərə çəkib dayandı. O, daha yeriyə bilməyib böyrü üstə uzandı.
Atıcı Madarı görən kimi qucaqlayıb üz-gözündən öpdü, ona Lalənin salamını yetirdi.
Madar ağacı tanıdı. O, ağacı əlinə alıb ayıya tərəf yüyürdü. Ayı bərkdən inildəyirdi. Onun gözləri yumulu idi. Madar ona çatan kimi bağırdı:
—Tapdıq!
Ayı gözünü açıb Madara baxdı. Doluxsundu, gözlərini yumdu. İsti yaş damcıları yanağı aşağı axıb soyuq daşların üstünə düşdü.
Madar naxışlı ağacla ayını vurub dedi:
—Çəkil, insan!
Tapdığın çılpaq bədənindən isti qan axırdı. Madar köynəyini onun yarasına basmaq istədikdə Tapdıq razılaşmadı.
—Madar, çobanın cürcənəsini üstümə salın. Ceyranı xilas edin, o tilsimli adamın əlindədir. Qoy heç olmasa ölən dəqiqələrimdə onun üzünə insan kimi baxım.
Madar dedi:
—Tapdıq, yaran ağır olsa da sağalacaqsan.
Madar, dəvə sahibləri, atıcı və yoldaşları
Tapdığa təsəlli verib Ceyranı xilas etmək üçün yürüşə hazırlaşdılar.

Birdən qızılquş qanad çalıb göyə qalxdı. Azca uçub getdikdən sonra təkrar gəlib atıcının qoluna qondu. Quşun ürəyi az qalırdı yerindən qopsun. Atıcı göyə baxdı. Heç nə görmədi. «Çınqıllı»ya nəzər saldıqda qoltuğunda nə isə tutmuş heybətli bir adamın bərkdən qıy vura-vura onların üstünə cumduğunu gördü. Madar onu tanıdı. O, tilsimli adam idi. Qoltuğunda tutduğu isə huşunu itirmiş Ceyran idi. Tilsimli adam ilk həmləni Madara endirdi. Naxışlı ağac yerə düşən kimi çoban yüyürüb onu götürdü. Həmlədən səndirləyən, ancaq yıxılmayan Madar, neştəri tilsimli adamın boğazına itələdi. Neştər, zəhərli olduğundan çox çəkmədən tilsimli adam yerə uzanıb inləməyə, su istəməyə başladı. Atıcının yoldaşlarından birisi dibək suyundan bir ovuc ona içirtdi. Tilsimli adam yadından çıxarıb zəhərli suyu içdi və bu dünyadan həmişəlik köçdü.
Madarın köməyinə gələnlər bir dəstə çiçək dərib Ceyranın burnuna tutdular. Ceyran yavaş-yavaş huşa gəlməyə başladı. Gözünü açan kimi yenidən insan olmuş Tapdığı gördükdə:
—Tapdıq! — deyib onun üstünə atıldı.
Madar Tapdıqdan soruşdu:
—Burada solmaz çiçək haradadır? — Tapdıq qollarını çətinliklə geniş açıb dedi:
—Bütün bu çəmən solmaz çiçəklə doludur. Bu çiçəklərin ətrindən başım ağırlaşır. Çiçəklər üstündə gəzən qıçlarım hərəkətdən düşür, gözlərim isə çəmənə, çiçəklərə, sizə baxmaqdan doymur. Həyat şirindir. Məhəbbət, həyatdan da dadlıdır.
Madar «Gur bulaq» üstündən dərib xurcununda saxladığı çiçəklərdən bir dəstə Tapdığın yarasına qoyub bağladı.
Bir gün sonra Tapdıq çiçək kimi çırtladı.
Madar naxışlı ağacı əlində yellədərək:

—İnsan oğlunun azadlığına mane olmaq istəyən hər nə varsa, bu ağacın və tilsimli adamın kökünə düşəcək! — deyib onu qayalardan birinə çırpdı, qırıq-qırıq elədi. Bu qayalar yavaş-yavaş cana gəlməyə, dirçəlməyə və canlı insan şəklinə düşməyə başladı.

Tilsimə düşmüş insan şəkilli qayalar dil açdı. «Sağ ol, Madar! Sağ ol, tilsimləri qıran havadar!» deyib onu alqışladılar. Onlar da Madarın dəstəsinə qoşulub: «Sən hara, biz də ora!» deyərək yola düşdülər.

Hamının qucağında solmaz çiçəklərdən dəstə var idi. Onların getdiyi yol, dayandığı mənzil, keçdiyi oymaq ətir qoxuyurdu.

Madarla adamları «Qızılquşlara» çatan günü padşah sarayının qabağında böyük izdiham var idi. Bütün şəhər bura toplaşmışdı.

Madardan və atıcıdan xəbər gəlmədikdə Lalə özü atlanıb yola çıxmışdı. Padşah xəbər tutduqda adam göndərib Laləni arxadan vurdurmuşdu. Lalə ağır yaralanmışdı. Madarın saysız-hesabsız adamla qayıtdığını şaha xəbər verdilər. O, bərk qorxdu. Şahın keşikçiləri də qorxudan pərən- pərən düşdülər.

Madar birbaşa şahın yanına getdi, vədinə əməl etmədiyini üzünə deyib əlindəki neştəri onun ürəyinə sancdı.

—Qoca kaftar, vəhşilər belə öz balasını müdafiə etdikləri halda sən öz qızını yaraladın. Mən sözümə əməl elədim. Sən əhd-peymanını pozdun!

Padşahın ölümü camaat bayramına çevrildi. Madar gətirdiyi solmaz çiçəklərdən bir dəstəsini Lalənin yastığı altına qoydu, bir dəstəsini isə burnunun qabağına tutdu.

Lalə çiçəklərin ətrini sinəsinə çəkdikcə yarası sağalır, ayrılığın acıları canından çıxırdı.

Günlər keçdikcə Madar, Lalə, Tapdıq, Ceyran, Çoban, dəvə sahibləri, atıcı və onların tilsimdən qurtarılmış saysız-hesabsız dostları solmaz çiçəklər kimi gözəlləşir, qardaş tək birləşirdilər.

Yanvar, 1953

*Rəssamı  E. Məmmədov.*
*Bədii redaktoru  H.Rəhimov.*
*Texniki redaktoru X. Səfərova*
*Korrektor S. Haqverdiyeva*

*Yığılmağa verilmiş 5. 11. 87. Çapa imzalanmış 23. 03. 88.*
*Kağız formatı 60X 90/16- Ofset kağızı. Гар. школнауа.*
*Ofset üsulu ilə. Şərti c/v 2,5. Rəngli şərti c/v 10,5. Uçot nəşr. v. 1,99. Tirajı 35000. Sifariş № 871. Qiyməti 15qəp.*
*Azərbaycan SSR Dövlət Nəşriyyat Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi «Gənclik»  nəşriyyatı Bakı, Hüsü Hacıyev küçəsi, 4.*
*Издательство «Гянджлик», Баку, ул. Гуси  Гаджиева, 4.*
*26-Bakı komissarı adına mətbəə, Bakı, Əli Bayramov küçəsi, 3.*
*Типография им. 26-ти бакинских комиссаров, Баку, ул. Али Байрамова, 3.*
ИБ № 1948.

*Latın əlifbasına çevirəni Dilbər Babayeva*
*İşləyəni Vəfa Ağamirzəyeva*

Велиев Али Кара оглы
**Сказаные Мадара**
(На азербайджанском языке)
Баку
Гянджлик
1988

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elektron Kitabları

15 гэп.

